# Azadlıq və toxunulmazlıq hüququ– Əsas insan hüquq və azadlıqlarınını müdafiəsinə dair Avropa Konvensiyasının 5-ci maddəsi

Mətanət Əsgərova,Ədliyyə Akademiyası

Bakı -2015

## 5-ci maddənin fərdi azadlıq hüququnu elan etməsinin 3 məqsədi

1. azadlıqdan məhrum etmə barədə ümumi qadağa;
2. dövlət tərəfindən məcburiyyət tədbirləri həyata keçirilərkən bu hüququn məhdudlaşdırıla biləcəyi halların dairəsini müəyyən etmək (istisnalar);
3. əməl edilməli olan mühüm şərtlərin müəyyən edilməsi.

Dövlət 5-ci maddənin I hissəsində nəzərdə tutulan hallardan başqa və milli qanunvericilikdə və 2-5 hissələrində nəzərdə tutulan qaydadan kənar heç kimi azadlıqdan məhrum etməməyi üzərinə götürür

# Konvensiyanın 5-ci maddəsinin quruluşu:

- I hissə - azadlıqdan məhrum etmənin ümumi qadağan olunması və azadlıqdan məhrumetmənin əsaslandığı halların qəti siyahısı
- 2, 3, 4, 5 –ci hissələr –azadlıqdan məhrum etmə zamanı minimal prosedur təminatları

# «Azadlıqdan məhrumetmə»

- - həbsdə saxlama, həbsin və tutmanın müxtəlif növləri- insan cəmiyyətdən təcrid olunur, öz xidməti vəzifələrini yerinə yetirə bilmir, öz mülahizəsinə görə hərəkət edə bilmir və qeyri-məhdud sayda şəxslər dairəsi ilə ünsiyyətdə ola bilmir

# «Həbs» «Tutma»

| *Konvensiya* | *CPM* |
| --- | --- |
| Həbs | qətimkan tədbiri kimi |
| Tutma | tutma prosessual məcburiyyət tədbiri kimi |

«həbs» (arrest) Konvensiyada cinayətə aidiyyəti olduğuna şübhə olduqda ilkin tutma aktı kimi müəyyən olunur. «Tutma» (detention) əslində məhkəməyəqədər həbsdə saxlamadır

# Konvensiyanın 5-ci maddəsi üzrə qanunçuluğun anlayışı

2 aspekti var: «qanuni tutma və ya həbsə alma» - maddi aspekt (milli qanunvericiliklə və Konvensiya ilə azadlıqdan məhrum etmə üçün nəzərdə tutulmuş əsaslar) (1-ci bənd)

«qanunla müəyyən edilmiş qaydada» - prosessual aspekt (2-4-cü bəndlər)

# Milli qanunun kriteriyaları

Məhkəmənin presedent təcrübəsində milli qanunun müəyyən kriteriyalarını müəyyən edir –şəxsin əsasında azadlıqdan məhrum edildiyi norma əlçatan olmalıdır və dəqiq formulə edilməlidir. Baranowskiy v. Poland işində AİHM 50-ci bənddə göstərir: « 5-ci maddənin I hissəsində «qanunu» və «qanunla müəyyən edilmiş qaydada» ifadələri daha çox milli qanunvericiliyə aiddir və onun maddi və prosessual normalarına riayət etmək öhdəliyini müəyyən edir. Bütövlükdə dövlətdaxili qanunların təfsiri və tətbiqi milli hakimiyyət orqanlarının, hər şeydən əvvəl məhkəmənin vəzifəsidir. Ancaq milli qanunlara riayət edilmədikdə, müvafiq olaraq Konvensiya pozulduqda AİHM milli qanunvericiliyə riayət edilməsinin yoxlanılması üçün müəyyən səlahiyyətlərdən istifadə edə bilər və istifadə etməlidir

# 5-ci maddənin I hissəsi üzrə azadlıqdan məhrum etmənin əsasları

- 5-ci maddənin I hissəsində insanın azadlığının məhdudlaşdırıla biləcəyi halların siyahısı verilmişdir. Bu isə o deməkdir ki, azadlıqdan məhrum etməni 5-ci maddənin I hissəsində sadalanan hallardan hər-hansı birinə istinad etməklə izah etmək olmaz, bu halda azadlıqdan məhrum etmə Konvensiya pozulmaqla həyata keçiriləcəkdir
- Milli qanunvericilikdə azadlıqdan məhrum etmə üçün əlavə əsas (məsələn, avaraçılıq)

# İnzibati Xətalar Məcəlləsi
# **Avaralıqla məşğul olma**

- Maddə 307-1. **Avaralıqla məşğul olma**

307-1.1. Avaralıqla məşğul olmağa görə –

vətəndaşlar xəbərdarlıq edilir və ya işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda on günədək müddətə inzibati həbs tətbiq edilir, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə xəbərdarlıq edilir və ya onlar iyirmi manatdan iyirmi beş manatadək miqdarda cərimə edilməklə və ya edilməməklə Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılır.

# 5-ci maddənin I hissəsinin əsasları: a) bəndi

- a) səlahiyyətli məhkəmə tərəfindən məhkum olunduqdan sonra şəxsin qanuni həbsə alınması! Milli məhkəmənin hökmü bu bəndə istinad etməklə şikayət verilmir. 5-ci maddənin I hissəsinin «a» bəndinin pozulmasına misal – Assanidze v Georgia
- , European Court of Human Rights (Grand Chamber), April 8, 2004

# I nzibati Xətalar Məcəlləsi

Maddə 23. **İnzibati tənbeh növləri**

23.1.7. inzibati həbs.

- Maddə 30. **İnzibati həbs**

30.1. İnzibati həbs, yalnız müstəsna hallarda, inzibati xətaların ayrı-ayrı növlərinə görə üç ay müddətinədək müəyyən olunur və tətbiq edilir.

30.3. İnzibati qaydada tutma müddəti inzibati həbs müddətinə daxil edilir

# 5-ci maddənin I hissəsinin «b» bəndi: qanuni tutulma və ya həbsə alma üçün iki əsas

- (b) məhkəmənin qanuni çıxardığı qərarı icra etməməyə görə və ya qanunla nəzərdə tutulmuş hər hansı öhdəliyin icra olunmasını təmin etmək məqsədi ilə şəxsin qanuni tutulması və ya həbsə alınması;
- Şəxs vəzifələrini icra edursə, b bəndi ilə tutma və həbsə alma istisna olunur.

# 5-ci maddənin I hissəsinin b) bəndinin üzrə nümunələr Şəxsiyyəti müəyyət etmə üçün tutma

- Prosesə gəlməyən şahidin gətirilməsi. Benham v. the UK (10/06/1996) –işində vergiləri ödəməmə nəticəsində həbsə alma b) bəndinin təsiri aaltına düşür, belə ki, həbsə almanın məqsədi ərizəçinin vergi ödəmək şhdəliyini yerinə yetirməsinin təmin edilməsidir. Steel and others v. UK (23 sentyabr 1998) işində -publik qaydaya riayət etmə tələbinə tabe olmaqdan imtina etmə – həbsə alma qanunidir

# 5-ci maddənin I hissəsinin «c» bəndi – ilkin tutma (həbs) aktı

- hüquq pozuntusunun törədilməsində əsaslı şübhə
- hüquq pozuntusunun qarşısını almaq üçün
- pozuntunu törətdikdən sonra gizlənməsinin qarşısını almaq üçün

## 5-ci maddənin I hissəsinin «c» bəndi –azadlıqdan məhrumetmənin tətbiq edilməsi

- 1.ittiham elan olunan şəxsin məhkəyə gəlməməsi risqi;
- 2. ittiham elan olunan şəxsin azad olunduqda ədalət mühkiməsinin həyata keçirilməsinə maneçilik törədəcək hərəkətlər etməsi risqi;
- 3. şəxs yeni hüquq pozuntusu törədəcək;
- 4. ictimai qaydanı pozacaq

# 5-ci maddənin I hissəsinin «d» bəndi

- «yetkinlik yaşına çatmamış şəxsin tərbiyə nəzarəti üçün qanuni qərar əsasında həbsə alınması və ya onun səlahiyyətli orqana verilməsi üçün qanuni həbsə alınması;»
- Tərbiyəvi nəzarət üçün həbsə almanın Konvensiyaya uyğun olması üçün o, yetkinlik yaşına çatmamış şəxsin açıq və ya qapalı xüsusi mühitə yerləşdirilməsi yolu ilə səmərəli tərbiyə rejiminin tətbiq edilməsinə gətirməlidir.

## 5-ci maddənin I hissəsinin «e» bəndi

yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq üçün şəxslərin, habelə ruhi xəstələrin, alkoqolizmə və narkomaniyaya mübtəla olanların və ya səfillərin qanuni həbsə alınması;

- alkoqolizmə mübtəla olanların qanuni həbsə alınması : Witold Litwa v. Poland (4 aprel 2000) işində AİHM göstərdi ki, alkoqol sərxoşluq vəziyyətində olan şəxs avtomatik olaraq 5-ci maddənin təsiri altına düşmür. Alkoqolun təsiri altında davranışları publik qayda və ya onların özü üçün təhlükə törətdikdə, hətta alkoqolizm diaqnozu qoyulmadıqda belə, onlar cəmiyyətin müdafiəsi və ya onların özlərinin xüsusi maraqlarının müdafiəsi üçün, məsələn, onların sağlamlığının və ya şəxsi təhlükəsizliyinin müdafiəsi məqsədilə həbsə alına bilərlər

**5-ci maddənin I hissəsinin «f» bəndi -**

şəxsin ölkəyə qanunsuz gəlməsinin qarşısını almaq məqsədi ilə və ya barəsində deportasiya yaxud ekstradisiya tədbirləri tətbiq olunan şəxsin qanuni tutulması və ya həbsə alınması;

- Şəxsin ölkəyə qanunsuz gəlməsininqarşısının alınması və ya verilməli olan şəxsin həbsə alınması. Konvensiya xaricilərin miqrasiyasını tənzim etmir. «f» bəndi xaricilərin tutulması və ya həbsi zamanı təminatklar nəzərədə tutur

# Tutmanın qanuniliyi – prosedur üzrə (minimal prosedur təminatlar)

- II hissə - həm cinayət prosesi, həm də digər proseslər çərçivəsində azadlıqdan məhrum etməyə tətbiq olunur
- III hissə – 5-ci maddənin I hissəsinin «c» bəndinə uyğun olaraq tutulmuş şəxsin hüquqlarının müdafiəsinin təminatları;
- IY hissə – tutmanın qanuniliyindən şikayət verilməsi prosesinin başlanması;
- Y hissə –qanunsuz tutmaya görə kompensasiya təminatları

# Pozuntuların mümkün «qurbanları»

- Şübhəli şəxs-təqsirləndirilən şəxs - azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxs – barəsində inzibati hüquq pozuntusu barədə üş üzrə icraat aparılan şəxs – hərbi qulluqçu – cinayət məsuliyyətinə cəlb etmə yaşına çatanadək cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxs – psixi pozuntuları olan şəxs

## 5-ci maddənin «-ci hissəsi
## Tutulmuş hər bir kəsə ona aydın olan dildə onun tutulmasının səbəbləri və ona qarşı irəli sürülən istənilən ittiham barədə dərhal məlumat verilir.

- Dərhal (gecikdirilmədən) - *Murray v. the United Kingdom*, 28 October 1994 işində ərizəçi səhər saat 7-də tutulmuş və 8.20-9.35 arası dindirilmişdir.AİHM hesab etdi ki, bu müddət dərhal anlayışının təsiri altına düşür.  Tutulmuş şəxsə tutmanın səbəbləri və əsasları barədə məlumat verilməsinin forması tələb olunmur. Şəxsə ittihamların tam  siyahısının bildırılməsi vacib deyil, həm də bu siyahı hələ olmaya billər. Tipik pozuntular şahid qismində ifadə vermə, sonradan bu məlumatlardan onun əleyhinə istifadə oluna bilər.2-ci hissə bütün tutuma hallarında tətbiq olunur.

# 5-ci maddənin 1-ci bəndinin «c» yarımbəndi

tutulmuş və ya həbsə alınmış hər kəs dərhal hakimin və ya qanunla məhkəmə hakimiyyətini həyata keçirmək səlahiyyəti verilmiş digər vəzifəli şəxsin qarşısına gətirilir və ağlabatan müddət ərzində məhkəmə araşdırması və ya məhkəməyə qədər azad edilmək hüququna malikdir. Azad edilmək məhkəməyə gəlmə təminatlarının təqdim edilməsi ilə şərtləndirilə bilər.

## 5-ci maddənin I hissəsinin «c» bəndində nəzərdə tutulan orqanlar

–prokurorluq məhkəmə orqanı deyildir, azadlıqdan məhrumetmənin qanuniliyi haqqında qərar qəbul etmək funksiyasını həyata keçirə bilməz (Huber v. Switzerland 23 oktyabr 1990 (şikayət N 12794/87): Dərhal – adətən 2 sutkadan yuxarı. Bəraətverici əsaslar – **KOSTER v. THE NETHERLANDS 28 noyabr 1991** işində 5-ci maddənin 3-cü hissəsinin pozulması qəbul edilmişdir, baxmayaraq ki, tutulmuiş şəxsin hərbi məhkləməyə gətirilməsinə hərbi manevrlər 5 gün mane olmuşdur. Milli məhkəmələrin hakimlərin çatışmamasına istinadı eyni cür qiymətləndirilməlidir.

# 5-ci maddənin 4-cü bəndi

4. Tutulma və ya həbsə alınma nəticəsində azadlıqdan məhrum edilmiş hər kəs onun həbsə alınmasının qanuniliyinə məhkəmə tərəfindən təxirə salınmadan baxılması hüququna və əgər onun həbsi məhkəmə tərəfindən qanunsuz hesab edilibsə, azad edilmək hüququna malikdir

# «təxirə salınmadan»

- dərhal barədə tələb qədər qəti deyil, belə ki, 5-ci maddənin 4-cü hissəsi ilə bağlı yaranan hüquqi məsələlər daha mürəkkəb ola bilər. Bəzi hallarda məhkəmə 1-2 həftə müddəti təxirə salılnmadan tələblərinə cavab verən hesab etmişdir. 3-cü hissə ilə 4-cü hissə arasında fərq – 3-cü hissədə hakimiyyət orqanlarının təşəbbüsü ilə avtomatik məhkəmə nəzarəti, 4 hissədə – şəxsin tutmanın qanuniliyinin yoxlanılmasını tələb etməsi hüququ

5-ci maddənin 5-ci bəndi

5. Bu maddənin mьddəalarının pozulması ilə tutulmağa və ya həbsə alınmağa məruz qalan hər kəsin kompensasiya hüququ var.

- 5-ci maddə pozulmaqla həyata keçirilmiş həbsə almanın qurbanlarının kompensasiya hüququna təminat , əsaslar olduqda, əsaslar olmadıqda, prosedur təminatlar yerinə yetirilmədikdə.